# Nobel mükafatı laureatı, akademik Jores Alfyorovla görüş

**_Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı əsasında akademiyanın qarşıdakı 70 illik yubileyi ilə əlaqədar olaraq "Azərbaycanın elm məbədi" adlı sənədli film çəkilir. Akademiyanın tarixi ənənələrini və müasir inkişafını əks etdirəcək filmin elmi məsləhətçisi AMEA-nın prezidenti, akademik Akif Əlizadədir._**



Filmi hazırlayan yaradıcı qrupun rəhbəri və ssenari müəllifi AMEA-nın vitse-prezidenti, akademik, millət vəkili İsa Həbibbəyli "SƏS" qəzetinə verdiyi açıqlamasında bildirib ki, çəkilişlər əsasən başa çatmaq üzrədir: "Salnamə" studiyasının çəkdiyi filmin baş rejissoru, tanınmış kino xadimi Ayaz Salayev, operatoru Moskva Dövlət Kinematoqrafiya İnstitutunu bitirmiş Yuri Varnovskidir. Yaradıcı qrup Milli Elmlər Akademiyasının əhatə etdiyi əksər elmi-tədqiqat institutlarında çəkilişlər aparıb, müsahibələr alıb. Bundan başqa, Foto-Kino Sənədləri Arxivindən nadir materiallar əldə olunub. Eyni zamanda, Ukrayna Elmlər Akademiyasının prezidenti, akademik Patondan, Rusiya Elmlər Akademiyası Dünya Ədəbiyyatı İnstitutunun direktoru, akademik Aleksandr Kudelindən də Azərbaycanda elmin və Elmlər Akademiyasının inkişafı ilə əlaqədar müsahibələr alınıb".

Qeyd olunub ki, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli və şəkiliş qrupunun üzvləri bu günlərdə film üçün müsahibə almaq məqsədilə Sankt-Peterburq şəhərində Rusiya Elmlər Akademiyasının vitse-prezidenti, Nobel mükafatı laureatı, akademik Jores İvanoviç Alfyorovla görüşüb. Peterburq Elmi Mərkəzinin rəhbəri, akademik Jores Alfyorov Azərbaycanda çətin şəraitdə Elmlər Akademiyasının qorunub saxlanılmasını və ölkədə elm sahəsində həyata keçirilən islahatları yüksək qiymətləndirib: "Azərbaycanda Elmlər Akademiyası inkişaf etdirilir, islahatlar uğurla həyata keçirilir, ən başlıcası isə ölkənin rəhbərliyi elmin inkişafına dəstək verir və qayğı göstərir."

Nobel mükafatı laureatı, akademik Jores Alfyorov onun elmi fəaliyyətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dövlət səviyyəsində yüksək qiymətləndirilməsini dərin minnətdarlıq hissi ilə qarşıladığını bildirib. Sankt-Peterburq Elmi Mərkəzinin rəhbəri, Akademik Universitetin rektoru, akademik Jores Alfyorov Azərbaycanla olan çoxillik elmi əlaqələrindən, həmkarları ilə münasibətlərindən söz açıb, qarşılıqlı əlaqələrin dərin köklərindən və ənənələrindən, habelə dünyada Elmlər Akademiyaları sistemində gedən müasirləşmə proseslərindən danışıb, elmin inkişaf etdirilməsinin əhəmiyyətindən bəhs edib. Görüşdə yeni tarixi mərhələdə Azərbaycan Milli Elmlər Akademiyası ilə Peterburq Elmi Mərkəzi və onun institutları arasında əlaqələrin yenidən qurulması, əməkdaşlığın inkişaf etdirilməsi zərurəti xüsusi olaraq vurğulanıb. Nobel mükafatı laureatı, akademik Jores Alfyorov Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubiley tədbirlərində iştirak etmək dəvətini razılıqla qarşılayıb. Görüş zamanı Nobel mükafatı laureatı, akademik Jores Alfyorova Azərbaycan Milli Elmlər Akademiyası adından xatirə hədiyyəsi təqdim olunub. Qarşıdakı aylarda "Azərbaycanın elm məbədi" filminə dair əldə edilmiş tarixi materialların və yeni çəkilmiş videolentlərin montajı işi aparılacaqdır.

**_R.HÜSEYNOVA_**